AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 9/3

Bakı şəhəri 29 iyun 2016-cı il

AMEA-nın Elm Tarixi Muzeyinin
yaradılması haqqında

Azərbaycanda elmin populyarlaşdırılması, elmi nailiyyətlərin təbliği, gənc nəsildə elmə marağın artırılması, həmçinin Azərbaycan elminin keçdiyi tarixi yolu özündə əks etdirən eksponantların toplanılması və qorunub saxlanılması, bu sahədə ekspozisiyaların qurulması, onun daim zənginləşdirilərək təkmilləşdirilməsi, ekspozisiya və sərgilərdə nümayişi, təbliği məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA-nın Elm Tarixi İnstitutunun nəzdində Elm Tarixi Muzeyi yaradılsın.
2. AMEA-nın Elm Tarixi İnstitutunun direktoru, tarix üzrə elmlər doktoru Məryəm Seyidbəyliyə tapşırılsın ki, Elm Tarixi Muzeyinin Əsasnaməsini hazırlayaraq AMEA Rəyasət Heyətinə təqdim etsin.
3. AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr və elmin populyarlaşdırılması idarəsinin rəisi Zülfüqar Fərzəliyevə tapşırılsın:
   - 3.1. AMEA-nın Elm Tarixi Muzeyinin mövzu-ekspozisiya planının hazırlanması təmin edilsin;
   - 3.2. mövzu-ekspozisiya planı AMEA-nın elmi bölmələri ilə razılaşdırılaraq AMEA Rəyasət Heyətinə təqdim edilsin;
   - 3.3. Muzeydə aparılacaq tərtibat işlərinin icrası ilə əlaqədar müqavilə təsdiq üçün təqdim edilsin;
   - 3.4 2017-ci ildə Muzeyin açılışı təmin edilsin.

4. AMEA-nın elmi bölmələrinin akademik-katiblərinə və elmi tədqiqat müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, AMEA-nın Elm Tarixi Muzeyinin mövzu-ekspozisiya planının hazırlanmasından irəli gələn məsələləri həll etsinlər.
5. AMEA-nın Akademiya şəhərciyinin müdiri Bayram Babayevə tapşırılsın ki, Elm Tarixi Muzeyi üçün nəzərdə tutulan AMEA-nın Əsas binasının (H.Cavid pr., 115) 2-ci mərtəbəsindəki keçmiş Oxu zalının təmirini başa çatdırsın.
6. AMEA-nın İnformasiya Texnologiyaları İnstitutuna tapşırılsın ki, Elm Tarixi Muzeyinin İKT təminatı məsələləri həll edilsin.
7. AMEA İşlər idarəsinə (siyasi elmlər üzrə fəlsəfə doktoru Fətəli Abdullayev) və AMEA Rəyasət Heyəti aparatının Maliyyə-iqtisad və mühasibat uçotu şöbəsinə (texnika üzrə fəlsəfə doktoru İlqar Quliyev) tapşırılsın ki, qərarın icrasından irəli gələn məsələləri həll etsinlər.
8. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə tapşırılsın.

AMEA-nın prezidenti — akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi — akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ MƏRKƏZİ APARAT PROTOKOL ŞÖBƏSİ